# Dünyanı güldürən film



**Ötən əsrin 20-ci illərindən yaranan Amerika kinokomediyası adam və əşyalar aləminin ziddiyyətini sirk elementləri ilə göstərən aktyor, rejissor Mak Sennetin adı ilə bağlansa da, onun filmlərində insan amili yox dərəcəsində idi. Pantomim, plastika kimi ifadə vasitələrinin mahir ustası, aktyor, rejissor, ssenariçi, prodüsser, bəstəkar Çarlz Spenser Çaplin (1889-1977) mübaliğəli burlesk, myuzk-holl melodramanın insan amilinin üzərində bərqərar olan kinokomediya janrının formalaşmasında müstəsna rol oynadı.**

Onun hər bir filmindəki xeyir-şər qarşıdurmasında, varlılıqla kasıbçılığın sosioloji qarşıdurmasında komik məqamlara üstünlük verildi. Və göz yaşı içində gülüş yaradan bu məqamların haqq-ədalətin təntənəsinə yönəlməsi "Balaca" (The Kid, 1921), "Piliqrim" (The Pilgrim, 1923) kimi ilk filmlərdən üzə çıxdı... Çarlz Çaplinin "Qızıl qızdırma" (The Gold Rush 1925) adlı ilk tammetrajlı filmi isə sənətkara görünməmiş uğur gətirdi. Devid Robinsonun: "Səhər yeməyindən sonra onun əlinə götürdüyü stereskopdakı, 1898-ci ilin "qızıl qızdırmasında" Kalondaykın cəlb etdiyi axtarıcıların bitməyən zəncirinin Çilkut aşırımını keçmələrini əks etdirən bir şəkil onda məxsusi, güclü təsir yaratmışdı. Şəklin arxasındakı mətn qızılaxtaranların qismətinə düşən çətinlikləri təsvir edirdi" xatirəsinə əsaslanması və "1846-cı ildə iyirmi doqquz kişi, on səkkiz qadın və qırx üç uşaqdan ibarət qızılaxtaran mühacirlə əlaqə qar uçqunu ilə itirildi. Onları xilas etmək istəyən on kişi, beş qadından səkkiz kişinin yolda ölməsi və digərlərinin bu cəsədlərlə qidalanmaqla xilas olması, xilaskarlar gəlib çatanda lagerdəkilərin çoxu ölsə də, sağ qalanlar yoldaşlarının cəsədlərini, itləri, öküz dərilərini və hətta öz ayaqqabılarını da yedilər yazan bir kitab da ikinci təkan oldu" cümlələri Çarlz Çaplinin dövrünün sensasiyalı hadisəsini ekrana gətirdiyini təsdiqləyir.

Qarlı dağlara üz tutan qızılaxtaranlara isti paltarsız, silahsız qoşulan, belindəki çantada yalnız adi qazanı, gödək pencəyi və iri ayaqqabıları olan əli çəlikli Balaca Çarli ilk məqamdan doğurduğu rəğbəti gülüşün müşaiyətilə tədricən inkişaf etdirir. V.İ.Pudovkinin: ""Qızıl qızdırma"da ayı uzun-uzadı dağda dolaşan Çaplinin ardınca düşür. Tamaşaçı düşünür-nə baş verəcək?! Sonra isə ayı birdən başqa bir tərəfə dönür. Heç nə baş vermir. Və seyrək gülüş uzanıb gedir" müşahidəsi komediyanın strukturunda gözlənilənlə baş verən arasındakı ziddiyyəti açır.

Beləliklə qarlı yarğanlarla, vəhşi heyvanlarla üzləşən Balaca Çarlini tufanda xilas edən komanın sahibi, quldur Blek Larsenlə (Tom Myurrey), digər çağrılmamış qonaq Böyük Cimmi (Mak Sueyn) ilə üzləşməsi, qida əldə edilməsi üçün püşk atılması ilkin ziddiyyəti üzə çıxarır. Blek Larsen tüfəngini götürüb getdikdən sonra aclığa dözməyən Balaca Çarlinin bişirdiyi iri ayaqqabı tayının dəri üzlüyünü Böyük Cimminin gö-



məsi ziddiyyəti komizmə yönəldir. Taleyi ilə barışaraq ayaqqabının kəndirini makaron kimi çəngəlinə dolayıb yeyən,altlığın dəmir mıxlarını çolpa sümüyü kimi sorub boşqabın kənarına düzən Balaca Çarli həyatadavamlılığını nümayiş etdirir. Aclıq əzabları tədricən artan Böyük Cimminin gözündə böyük, yağlı çolpaya dönən Balaca Çarlinin xilas yollarını axtarması komizmi zirvəyə qaldırır. Güclü təsir qüvvəsinə malik bu kinematoqrafik şərtilik komaya yaxınlaşan ayının ovlanması ilə başa çatır. İki qanun keşikçisini öldürərək qarət etmiş, varidatına sahib çıxmaq üçün Böyük Cimminin başına bellə vurub öldürmək istəyən Blek Larsenin uçuruma yuvarlanaraq məhvi dramaturji düyünü açır. Kiçik şəhərcikdəki taxta bara gələn, yeyilən ayaqqabısının əvəzinə ayağına doladığı əski parçası əvvəlki kasıbçılığın simvoluna çevrilən Balaca Çarlinin yerli ulduz Corciyaya (Corciya Xeyl) vurulması mənəvi dəyərləri yada salır. Beləliklə filmdə qətiyyən pula, qızıla rəğbət aşılamayan Çarlz Çaplin əksinə rişxəndlə yanaşdığı adi insanın, xırda qəhrəmanının Alyaskanın şaxtasına, aclığına sinə gərən daxili dünyasını, mənəvi gücünü önə çəkir. Balaca Çarlinin ətrafdakı sərt mühitlə qarşıdurmadan qalib çıxması təsadüfən əldə olunan var-dövlətlə deyil, qazanılan sevgi ilə səciyyələnir. Belə ki, özündənmüştəbeh qızılaxtaran Cek Kamerunu (Malkolm Uayt) ataraq Balaca Çarliyə sığınan qız tamaşaçı sevgisinin daşıyıcısına çevrilir. Sevgilisi uğrunda güclü və əclaf Cek Kamerunla mübarizəyə qalxan Çarlinin zərbələri dirəyə dəyməklə gülüş doğursa da, divar saatının qopub rəqibin başına düşərək onu zərərsizləşdirməsi şəri talenin iradəsilə cəzalandırır. Rəqibi öz zərbəsilə yerə sərdiyini düşünən Çarlinin məğrurluğu yenidən gülüş doğurmaqla komizmin fasiləsizliyini təmin edir. Və fövqəladə bir iş gördüyünü zənn edərək özünü dartan kəsin gülüş doğurması komizmi psixoloji ziddiyyətdə yaradır.

Rəfiqəsinin Corciyaya atdığı qar topunun kirayə qaldığı mənzilin qapısını açan Çarlinin gözünə dəyməsinin yaratdığı məmnunluq sevgi yolundakı şirin əzab kimi qavranılır. Və rəfiqələri ilə qızınmağa girdiyi otarda öz fotosunu görüb vəziyyəti anlayan Corciyayanın yeni il bayramına dəvət aldığını həmən unutması fabulanı təmin edir. Otaqda tək qalıb rəqs edərək havaya atdığı balışların lələklərinin arasında itən Çarlinin unutduğu əlcəklərinin dalınca gələn Corciyayanın gözündə endiyini düşünməsi komizmi yenidən psixoloji ziddiyyət qaldırır. Kinoşünas Ayvor Monteqyunun: "Çaplinin "Qızıl qızdırma" filmindəki tək bir "Corciya" sözünün, yunan faciələrində xorun təəssüratını yaratması, montaj hesabına subtitrə hansı məna qazanıldığını göstərir" cümləsi lal kinonun ustadının kadraltı yazılardan ustalıqla bəhrələnməsini təsdiqləyir.

Qar təmizləməklə qazandığı pula bayram süfrəsi açan Balaca Çarlinin yuxusunda sevgilisinə göstərdiyi iki çəngələ keçirilmiş bulkaların pantomim rəqsini sifətindəki mimika ilə müşaiyət etməsi yüksək sənət nümunəsinə çevrilir. Sənətkarın cansız nəsnələrə yeni dəyər, məna qazandırmaq qabiliyyətini göstərən Andre Bazenin: "Qəhrəmanla əşyaların əlbirliynin son dərəcədə dəyərli nümunəsini bulkaları xoreoqrafiya nömrəsinin oxşarına çevirəni rəqsdə ("Qızıl qızdırma"da) görmək olar" müşahidəsi sənətkarın nadir istedadını təsbit edir.

Başına vurulan bel zərbəsindən yaddaşını itirən Böyük Cimminin bara gəlişi ilə hadisə yeniləşir. Quldur Blek Larsenin komasının yaxınlığında gizlədilmiş qızılların tapılması ilə quldur Blek Larsenlə milyonçuya çevrilən Balaca Çarlinin iri gəmidə Corciya ilə rastlaşması filmi insani notlarla, sevgi motivində bitirir.

"Nə qədər paradoksal olmasına baxmayaraq faciə gülüşə vadar etdiyindən, mən düşünürəm ki, gülüş ziddiyyət ruhunun təzahürüdür; təbii ünsürlər qarşısındakı gücsüzlüyün təzahüründə dəli olmamaq üçün bizə gülmək qalır" qənaətinə gələn Çarlz Çaplin əslində qeyri-adi eksentrik komediyanın mahiyyətini açır.

• **A.DADAŞOV,**
*kinoşünas*

## Ədəbiyyat

1. Девид Робинсон. Чарли Чаплин. Жизнь и творчество. М. 1990.
2. Пудовкин В.И. Собрание сочинений. М.1974. т.4.
3. Айвор Монтегю. Мир фильма. М. 1969.
4. Андре Базен. Что такое кино? М., 1972.